# Qəbələ V Beynəlxalq Mürəbbə Festivalı

## Qədimliyi və müasirliyi birləşdirən şirinlik bayramı




Artıq çox böyük və möhtəşəm respublika və beynəlxalq miqyaslı tədbirlərə uğurla ev sahibliyi etməkdə kifayət qədər təcrübə toplamış Qəbələ avqustun 26-da yenidən öz bayram libasını geyinmişdi. Tarixi qədim, bu günü heyranedici, təbiəti füsunkar olan Qəbələ son bir ayda üçüncü dəfə böyük və çox maraqlı beynəlxalq tədbirdə ev sahibliyi edirdi. Ötən ayın 29-dan başlayaraq 7 gün boyunca Qəbələdə artıq dünyanın hər yerinə sorağı çatmış IX Qəbələ Musiqi Festivalı keçirilmişdi. Bu festivalın xoş təəssüratları qəlblərdə məskən saldığı bir vaxtda, avqustun 7-10 tarixlərində Qəbələmiz XIII Dünya Skaut Gənclər Forumuna ev sahibliyi etdi. XIII Dünya Skaut Gənclər Forumu iştirakçıların sayına və təmsil olunan ölkələrin müxtəlifliyinə görə skaut hərəkatı tarixində ən böyük toplantı idi. Bu forum gənclərin dünya görüşünün artırılması, müxtəlif xalqların adət və ənənələrinin, musiqi və mədəniyyətlərinin təbliği, xalqların bir-birinə daha çox yaxınlaşması və bir birinə hörmət etməsi, başa düşməsi baxımından çox əhəmiyyətli beynəlxalq tədbir idi. Sevindirici haldır ki, dünya skaut hərəkatının Qəbələ Forumunda iştirak edən nümayəndələr buradan çox böyük razılıq hissi ilə ayrıldılar.

Bu günkü bayram da məntiqi cəhətdən əvvəlki iki tədbirin davamıdır. Əgər musiqi festivalı insanlara mənəvi zövq verir, onları mənəvi qidalandırırdısa, skaut forumu insanları tolerantlığa, anlaşmaya, dostluğa səsləyirdisə bu gün keçirilən mürəbbə festivalı müxtəlif xalqların kulinariya sahəsindəki bacarıqlarını nümayiş etdirir, əslində insanları birbirinə yaxın olmağa, adət və ənənələrinə hörmət etməyə, qarşılıqlı öyrənməyə və anlaşmaya dəvət edirdi.



Qəbələdə keçirilən mürəbbə festivalları 2015-ci ildən beynəlxalq status almışdır. Beynəlxalq aləmdə bu festivala maraq ildən ilə artır. Bunun nəticəsidir ki, əgər 2015-ci ildə Qəbələ Beynəlxalq Mürəbbə Festivalında 6, 2016-cı ildə 10 xarici ölkədən mürəbbə ustaları iştirak etmişdisə bu günkü Qəbələ V Beynəlxalq Mürəbbə Festivalında 22 xarici ölkənin (Türkiyə, Almaniya, Belarus, Böyük Britaniya, Gürcüstan, Xorvatiya, İran, Qırğızıstan, Livan, Malayziya, Meksika, Moldova, Özbəkistan, Pakistan, Rumıniya, Rusiya, Polşa, Serbiya, Səudiyyə Ərəbistanı, Slovakiya, Şimali Kipr və Çin) mürəbbə peşəkarları iştirak edirdi. Festivala respublikamızın 44 şəhər və rayonunun şirniyyatçıları qatılmışdı.

Festival başlamazdan əvvəl Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, bayramın fəxri qonaqları, respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov, respublika Mədəniyyət və Turizm nazirinin müavini Vaqif Əliyev, Ümumdünya Kulinariya Təşkilatının prezidenti Tomas Guqler, respublika Milli Kulinariya Mərkəzinin baş direktoru Tahir Əmiraslanov, təşkilat komitəsinin üzvləri, xarici ölkələrdən gəlmiş komandaların rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri şəhərin mərkəzindəki ulu öndər Heydər Əliyevin adını daşıyan parkda ucaldılmış ümummilli liderin abidəsi önünə gül dəstələri düzdülər, dahi rəhbərin xatirəsinə ehtiramlarını bildirdilər.

Qəbələ V Beynəlxalq Mürəbbə Festivalı arxitektura cəhətdən qədimliyin və müasirliyin sintezii olan Karvansaray hotelin parkında başladı. Parkda xüsusi bayram əhval-ruhiyyəsi yaşanmaqda idi.

(Ardı 3-cü səhifədə).

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin V Qəbələ Beynəlxalq Mürəbbə Festivalında çıxışı

**Əziz qonaqlar!**

Hörmətli festival iştirakçıları, xanımlar və cənablar,

Dünya festivalları sırasında özünəməxsusluğu və məzmunu ilə seçilən V Qəbələ Beynəlxalq Mürəbbə Festivalında Sizi ürəkdən salamlayır, hörmətli qonaqlarımıza xoş gəlmişsiniz deyirəm.

Artıq 5-ci dəfədir ki, Azərbaycanın dilbər guşəsində, füsunkar təbiətli Qəbələdə öz şirinliyi və özünəməxsusluğu ilə seçilən Mürəbbə Festivalı keçirilir. Dəvətimizi qəbul edib bu Festivala qatılan bütün iştirakçılara öz təşəkkürümü bildirirəm.

Qeyd edim ki, bu günki festival son bir ayda Qəbələdə keçirilən üçüncü möhtəşəm beynəlxalq miqyaslı tədbirdir. Belə ki, rayonumuzda bu ilin 29 iyul 3 avqust tarixlərində IX Qəbələ Beynəlxalq Musiqi Festivalı, 7-10 avqust tarixlərində XIII Dünya Skaut Gənclər Forumu keçirilmişdir. Bu gün isə Qəbələ V Beynəlxalq Mürəbbə Festivalına ev sahibliyi edir.

Çoxsaylı kulinarların, peşakar şirniyyatçıların iştirak etdiyi bu dostluq və ləzzət bayramı olan festival mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı müxtəlif ölkələri təmsil edən nümayəndələrlə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradır ki, bu da mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə, qarşılıqlı anlaşmaya, milli adət və ənənələrə hörmətlə yanaşılmasına öz töhvəsini verir.

**Hörmətli tədbir iştirakçıları!**

Bu gün Azərbaycan öz zəngin tarixi, milli və tolerantlıq ənənələrinə görə dünyada tanınan ölkələrdən birinə çevrilmişdir.

Sürətli tərəqqi yolunda inamla irəliləyən müasir Azərbaycan qısa zaman kəsiyində böyük inkişaf mərhələsi keçmiş, əldə etdiyi uğurlara görə dünya miqyasında lider mövqeyə yüksəlmişdir. Qazanılmış bütün bu uğurlar ulu öndər Heydər Əliyevin çox böyük uzaqgörənliklə müəyyənləşdirdiyi siyasi və iqtisadi özül üzərində qurulmuşdur. Bu yolun davamçısı hörmətli Prezidentimiz cənab İlham Əliyevin gərgin əməyi nəticəsində iqtisadiyyatın Azərbaycan modeli dünya səviyyəsində öz təsdiqini tapmışdır.



Bu gün respublikamızda, eləcə də rayonumuzda nəhəng abadlıq-quruculuq işləri aparılır. Qəbələ sürətlə inkişaf edir, burada çoxsaylı yeni infrastruktur layihələri həyata keçirilir. Böyük fərəh hissi ilə qeyd etməliyəm ki, bu gün Qəbələ artıq dünyada turizm mərkəzi kimi tanınmaqda, Qəbələnin sorağı isə planetimizin ən ucqar guşələrində eşidilməkdədir.

Dünyanın tanınmış siyasətçilərinin iştirakı ilə Qəbələdə təşkil olunan forumlar, sammitlər, beynəlxalq idman yarışları, Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə təşkil edilən beynəlxalq musiqi festivalları, rəsm və incəsənət sərgiləri və bu kimi digər qlobal tədbirlər qeyd etdiyimiz sosial-iqtisadi inkişafın təntənəsi və təcəssümüdür.

**Hörmətli festival iştirakçıları!**

Bu cür beynəlxalq tədbirlərdən biri də Qəbələ Rayon İcra Hakimiyyətinin layihəsi əsasında 2013-cü ildən keçirilməsinə başlanılan Beynəlxalq Mürəbbə Festivalıdır.

Festival artıq 3 ildir ki, Beynəlxalq status almışdır. Festivalda iştirak edən rayonlarla yanaşı xarici ölkələrdən gələn kulinarların sayı ildən-ilə artmış, həmçinin münsiflər heyətinin tərkibinə beynəlxalq statuslu ekspertlər, peşəkar şirniyyatçılar daxil olmuşdur.

Əgər birinci festivalda respublikanın 8 rayonu iştirak edirdisə bu gün keçirilən V Festivalın əhatə dairəsi xeyli genişlənmişdir. Bayram xarakteri almış bu günki 5 illik yubley festivalında respublikanın 44 rayonu ilə yanaşı, 22 xarici ölkənin kulinarları, həmçinin Ümumdünya Kulinariya Təşkilatının Prezidenti cənab Gugler Tomas Andreas, Ümumdünya İslam Kulinariya Təşkilatları Birliyinin Prezidenti cənab Gökhan Tufan və baş katibi Ali Trabolsi Naaman da iştirak edir. Hörmətli qonaqlarımızı bir daha salamlayır və təşrif buyurduqlarına görə təşəkkür edirəm.

Qeyd etdiyim kimi bu festival Qəbələ Rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Milli Kulinariya Mərkəzinin və Milli Kulinariya Assosiasiyasının yaxından köməkliyi ilə keçirilir. Fürsətdən istifadə edib Festivalın keçirilməsinə yaxından köməklik göstərdiklərinə görə Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinə, Milli Kulinariya Mərkəzinin rəhbərinə və festivalın keçirilməsində zəhməti olan hər kəsə öz minnətdarlığımı bildirirəm.

**Hörmətli qonaqlar !**

**Hörmətli festival iştirakçıları!**

Azərbaycanın milli mədəniyyətinin və milli kulinariyasının təbliği, maddi və mənəvi sərvətlərimizin qorunması və inkişaf etdirilməsi, eləcə də turizmin inkişafı baxımından bu festival son dərəcə böyük əhəmiyyət kəsb edir.

Mənəvi dəyərlərin qorunmasında və təbliğində əvəzsiz rolu olan V Qəbələ Beynəlxalq Mürəbbə Festivalının iştirakçılarına, hörmətli qonaqlarımıza bir daha xoş gəlmişsiniz deyir, Sizə can sağlığı, mürəbbə tək şirin ömür arzulayır, festivalın işinə uğurlar diləyirəm!

Diqqətinizə görə təşəkkür edirəm.